# ŞAİR VƏ AKTYOR ƏLİQULU QƏMKÜSAR



*"Molla Nəsrəddin" ədəbi məktəbinin sütunlarından biri şair Əliqulu Qəmküsar nəinki ədəbiyyat tariximizdə, eləcə də teatr tariximizdə özünəməxsus mövqeyi ilə yaşayır.*

*Məslək, əqidə yoldaşları kimi Əliqulu Qəmküsar da millətin, xalqın tərəqqisini elmin, maarifin, mədəniyyətin inkişafında görmüş, bu yolda qələmi ilə durmadan mübarizə aparmışdır. Teatrı xalqın oyanışında ən real vasitə hesab edən şair hələ uşaq ikən bu sənətə maraq göstərmiş və nə isə etməyə çalışmışdır.*

Şairin qızı Qəmər Salamzadə nənəsi Bilqeyis xanımın vaxtilə atası barədə ona danışdıqlarını sonradan xatirələrində qələmə alaraq yazırdı... "Əliqulu lap kiçik vaxtlarından Naxçıvandakı həyətimizin dibində təndirəşər (təndirxana) deyilən bir iri otaq vardı ki, oranı pərdə ilə iki bölmüşdü. Evdən cürbəcür şeylər gətirib buranı bəzəmişdi. Orada oyun çıxardardılar. Aritistlər də əmisi oğlu Nəcəfqulu, kiçik qardaşları Rzaqulu, Məmmədqulu, Cəfərqulu, bacıları Xanım, Nərgiz idi. Bəzən bizi də tamaşaya çağırardılar. Məmmədqulu tütək, Rzaqulu isə qaval çalar və həm də oxuyardı. Sonra cürbəcür məzəli oyunlar göstərilərdi. Bu bir pərdəli oyunların çoxusunu Əliqulu özü yazardı". Akademik İsa Həbibbəyli də öz tədqiqatlarında şairin teatr sahəsindəki fəaliyyətinə yer ayırmış, şairin 1910-cu ildə Culfada teatr qruppasına rəhbərlik etməsi, M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını, Ə.Haqverdiyevin "Bəxtsiz cavan", "Dağılan tifaq" faciələrini tamaşaya qoyması haqda məlumat vermişdir. Göründüyü kimi bu istək və maraq onun "Ölülər"dəki kamil, əvəzolunmaz Şeyx Nəsrullah rolunu yaratmasına gətirib çıxardı.

"Molla Nəsrəddin" jurnalının bütün ağırlığını Mirzə Cəlillə birgə öz çiyinlərində daşıyan Əliqulu Qəmküsar 1914-cü ilin oktyabr ayında jurnal naməlum vaxta kimi fəaliyyətini dayandırdıqda belə yenə də Mirzə Cəlili tək buraxmamış, jurnalın yenidən nəşri üçün vəsait əldə olunmasında ona köməklik etmişdir.

1916-cı ilin aprel ayında Bakıya gələn Mirzə Cəlil və Əliqulu Qəmküsar jurnalın nəşri üçün tədarük görməyə başlayırlar. Bu dövrdə "Kaspi", "Açıq söz", "Yeni İqbal", "Bəsirət" qəzetləri Mirzə Cəlilin "Ölülər" pyesinin Bakıda oynanılacağı və əldə olunan pulla jurnalın nəşr ediləcəyi xəbərini yaymışdır və tamaşanın elanını da çap etdirmişdir.

Aprel ayının 29-da Tağıyev teatrında Məmmədquluzadə cənabları tərəfindən qayət sadə bir surətdə yazılmış "Ölülər" komediyası oynanılacaqdır...deməli, həmin gün məcmuənin 10 illiyi münasibətilə yubiley tərtib veriləcəkdir. Bu yubileydən hasil olan məbləğ "Molla Nəsrəddin" məcmuəsi nəfinə gedəcəkdir.

Bu tamaşanın rəhbəri Cəlil Məmmədquluzadənin özü olmuş, Şeyx Nəsrullah rolunu Əliqulu Qəmküsar, Kefli İsgəndər rolunu isə Mirzəağa Əliyev oynamışdır.

Tamaşanın müvəffəqiyyətlə oynanılması Bakının mədəni həyatında böyük canlanma yaratmışdı. Səhəri gün qəzet və məcmuələrdə "Ölülər" haqqında təəssüratlar işıqlandırılmışdır. May ayının 10-da tamaşa ikinci dəfə müvəffəqiyyətlə göstərilmiş, Üzeyir Hacıbəyov tamaşanın məsul müdiri olmuşdur.

"Molla Nəsrəddin" kimi məşhurlaşan Mirzə Cəlilə "Ölülər" tamaşası bir müəllif kimi şöhrət gətirmişsə, gözəl aktyorluq istedadına görə isə Əliqulu Qəmküsarı daha da məşhurlaşdırmışdır. Əliqulu Qəmküsarın yaratdığı Şeyx Nəsrullah surəti təkraredilməz bir obraz kimi həmişəlik olaraq Azərbaycan mədəniyyəti tarixinə daxil olmuşdur. O dövrün tənqidi və şairin müasirləri onun bənzərsiz, yaddaqalan oyununu yekdilliklə bəyənmişdilər.

Azərbaycan səhnəsinin korifeylərindən biri, şairin səhnədə tərəfmüqabili olan İsgəndər rolunun ifaçısı Mirzəağa Əliyev yazırdı: "Mən Ə. Qəmküsarla üç dəfə "Ölülər" pyesində oynamışam: iki dəfə Bakıda, bir dəfə Gəncədə. Mən İsgəndər, o isə Nəsrullah rolunu oynayırdı. Mən onun oyununun mislini sonralar görə bilmədim. Əliqulu Qəmküsar həm səhnədə, həm yaradıcılığında, həm də həyatda ruhanilərin qənimi idi".

1917-ci ildə Naxçıvanda "Ölülər" pyesində səhnəni şairlə birgə bölüşən korifey sənətkar Rza Təhmasib də onun ifasına yüksək qiymət vermişdir: "Şeyx Nəsrullah rolunun mən bir çox ifaçılarını görmüşəm. Lakin açıq deməliyəm ki, heç kəs, hətta Hidayətzadə kimi sənətkar belə, islamiyyəti dərindən bilən, mollaların həyat və psixologiyasına yaxşı bələd olan bu xırda cüssəli adamdan üstün tutula bilməz. Onun oyununda nə qədər dərin bir səmimiyyət və emosional bir zənginlik var idi! O fırıldaqçı ruhanilərin iyrənc mahiyyətini çox gözəl təcəssüm etdirirdi".

Yüksək səviyyəli oyun nümayişi, tamaşanın səmimi qarşılanması haqda məlumatlar qəzetlərin səhifələrindən düşmürdü. Qəzetlərin hamısı tamaşanı təqdim edən yazılar çap etdirmiş, Əliqulu Qəmküsarın müvəffəqiyyətli ifasını alqışlamışdır.

Əliqulu Qəmküsarın misilsiz ifası yaddaşlara ömürlük həkk olunmuşdur. Yeddi il sonra şairin vəfatının 5-ci ildönümü münasibətilə yazılan xatirə yazılarında da onun şairliyi ilə yanaşı aktyorluq fəaliyyəti də yad olunmuş və yüksək dəyərləndirilmişdir.

Görkəmli dramaturqumuz Əbdürrəhim bəy Haqverdiyev bu münasibətlə qələmə aldığı "Beş il" adlı xatirə yazısında: "Ömründə Əliqulu səhnə görməmiş, ilk dəfə səhnəyə çıxıb tamaşaçıları heyrətə gətirdi. Bakı teatr sevənlərindən onu hər kəs "Ölülər" komediyasında Şeyx Nəsrullah rolunda görüb, indi də xəyalından çıxartmayıb. Gözəl natiq, şirin zəban, dərin fikirli, geniş məlumat sahibi və insanı təəccübə gətirən hafizəli bir vücud idi ki, uşaqlığından axır gününədək hər nə əşar oxumuş idisə, hamısı hafizəsində idi" - deyə hörmətlə anmışdır.

"Ölülər" əsəri Bakıda oynanıldıqdan sonra "Turan türəsi" adlı Daşkənd teatr dəstəsi tərəfindən Daşkəndə dəvət almışdır. 11 iyun 1916-cı ildə Daşkənddə "Kolizey" teatrında bu dəstənin üzvləri, özbək dilində (Abdulla Övlaninin tərcüməsində) Mirzə Cəlilin nəzarəti altında əsəri tamaşaya qoymuşdur. Tamaşada Əliqulu Qəmküsar Şeyx Nəsrullah, Abdulla Övlani isə

İsgəndər rolunu ifa etmişlər.

Daşkənddən sonra Mirzə Cəlil Əliqulu Qəmküsarla birgə Aşqabad, Səmərqənd, Kazan, Həştərxan, Vladiqafqaz və Dərbənd şəhərlərində olmuşlar. Orta Asiyada olarkən onlar babilər, bəhayilər və digər müsəlman təriqətləri tərəfindən təqiblərə məruz qalmış, hətta Aşqabadda "Ölülər"in tamaşası baş tutmamışdır.

Aşqabaddan Orenburqa gələn Mirzə Cəlil və Əliqulu Qəmküsar burada da tamaşa qoymaq arzularına çata bilmirlər və Həştərxan şəhərinə gedirlər.

23 iyul 1916-cı ildə "Ölülər" əsəri Mahaçqala (Petrovisk) səhnəsində oynanılmışdır. Tamaşanın rus dilində proqramı da çap olunmuşdur. Proqram aşağıdakı məzmunda idi: "Şəhər teatrında, şənbə günü Tiflisdən gəlmiş artist Əliqulu Nəcəfovun və yerli dram sənəti həvəskarlarının iştirakı ilə tatar dilində tamaşa veriləcəkdir…

Oynanılacaqdır: "Ölülər".

İştirak edənlər: Şeyx Nəsrullah - Əliqulu Nəcəfov, Şeyx Əhməd - Əbdülhüseyn Talıbov, Hacı Həsən - Əbdülhüseyn Əlizadə, İsgəndər - Rəhimbəy Qayıbov, Kərbəlayı Fatma - Çopur, Nazlı - Yusif Dadaşov, Məşədi Oruc - Abdulla Şükürüllazadə…

Məsul müdir - Rəhimbəy Qayıbov, Rejissor - Cəlil Məmmədquluzadə, Suflyor - Müzəffər Müzəffərov.

1917-ci ilin əvvəllərində isə Əliqulu Qəmküsar Tiflisdə Rustaveli teatrında "Ölülər"in ilk tamaşasını təşkil etmiş, özü Şeyx Nəsrullah, Mirzəxan Quliyev isə İsgəndər rolunu oynamışdır.

Azərbaycanın xalq artisti Mustafa Mərdanov isə "Əlli il Azərbaycan səhnəsində" kitabında əsərin Əliqulu Qəmküsarın iştirakı ilə İrəvanda da tamaşaya qoyulması barədə ətraflı məlumat vermişdir: "1916-cı ildə bir dəstə aktyorlarla İrəvana qastrola getdim…

…"Ölülər"in müəllifi Cəlil Məmmədquluzadə bizdən xahiş etdi ki, İrəvanda Şeyx Nəsrullah rolunu oynamaq üçün şair Əliqulu Qəmküsarı da özümüzlə aparaq. Çünki "Ölülər" əsərini yazarkən Şeyx Nəsrullah surətini yaratmaqda Mirzə Əliqulu ona bir sıra məsləhətlər vermişdir.

… "Ölülər" tamaşasının yaxşı qarşılandığını görüb biz üç gündən sonra İrəvanda bir daha oynayacağımızı elan etdik, gurultulu alqış qopdu. Lakin bu sevincimiz çox davam etmədi. Ertəsi günü saat 10 idi. Mehmanxana xidmətçisi məni oyatdı:

-Durun, cənab Mərdanov, yoldaşınızı öldürdülər.

Mən tələsik geyinib aşağı düşdüm, Mirzə Əliqulunu başı-gözü qan içində mehmanxana önündə uzatmışdılar.

…İrəvan möminləri, "din mücahidləri" dünənki "biabırçı" tamaşadan xəbər tutub, onun əsas iştirakçısı olan Mirzə Əliqulunu gördükdə: - "Bu kafir oğludur, bizim dinimizə gülüb, şeyxlərimizi biabır edən babi oğlu babi!" - deyərək, şairi bərk döyüblər. Biz Mirzə Əliqulunu Tiflisə göndərməli olduq…".

İrəvan səfəri ilə yanaşı əsərin Gəncədə tamaşaya qoyulması da planlaşdırılmış və Əliqulu Qəmküsar lazımi işləri görmüş, rolları həvəskarlar arasında bölüşdürmüşdü. Lakin "Açıq söz" qəzeti 25 yanvar tarixli nömrəsində Əliqulu Nəcəfov xəstələndiyinə görə əsərin Gəncədə tamaşasının təxirə salınması xəbərini yaymışdır. Görünür İranda döyülüb zədə aldığından Əliqulu Gəncəyə gedə bilməmişdir.

1916-cı il avqust ayının 17-də əsər Şuşada Xurşidbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə birinci dəfə tamaşaya qoyulmuşdur. Həmidə xanım öz xatirələrində yazırdı: "Təxminən avqustun ortalarında Mirzə Cəlil Əliqulu Qəmküsarla birlikdə Şuşaya gəlib çıxdı…

Dostlarımız, tanışlarımız gəldilər, "Ölülər"i Şuşada tamaşaya qoymağı təklif etdilər. Həvəskar artistlər yığıldılar, onlarla Əliqulu məşğul olurdu. Onlar bizim evə yığışır, rollarını oxuyub əzbərləyirdilər. Tamaşa üçün xan imarətində yerləşən məktəb binasını tutduq. Tamaşa çox müvəffəqiyyətlə keçdi və hasil olan məbləğ məktəbli şagirdlərin ehtiyacı üçün sərf olundu".

Uğurlu qastrol səfərlərindən sonra Cəlil Məmmədquluzadə və Əliqulu Qəmküsar Tiflisə dönərkən jurnalın nəşri məsələləri ilə məşğul olmağa başladılar. Nəhayət, 1917-ci il fevral ayının 9-da jurnalın birinci nömrəsi çapdan çıxdı. Lakin müəyyən fasilələrlə il ərzində jurnalın yalnız 26 nömrəsi işıq üzü gördü. "Ölülər"lə qazandığı uğurlar Əliqulu Qəmküsarı teatr sənətinə daha sıx bağlamışdı. Şairin qızı Qəmər Salamzadə yazırdı ki, Ə.Qəmküsar "Əgər məktəb bilik verirsə, teatr da xalqın məişətində olan eybəcirlikləri göstərir, ona yaxşı ilə pisi seçməkdə kömək edir…" deyərdi. Məhz buna görə də jurnalın fasilələrlə çıxdığını görən Əliqulu Qəmküsar 1917-ci ildə Naxçıvana gələcək gənc teatr həvəskarlarını toplayaraq Rza Təhmasibin köməyi ilə "El güzgüsü" adlı dram cəmiyyəti təşkil etmişdir. Və ilk dəfə olaraq "Ölülər" pyesini tamaşaya qoymuş, Şeyx Nəsrullah rolunu özü oynamışdır. Həmin ilin iyun ayında Qəmküsar Naxçıvanda olduğu müddətdə M.F.Axundovun "Molla İbrahim Xəlil kimyagər", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərlərini tamaşaya qoymuşdur. "Açıq söz" qəzeti 2 iyun 1917-ci il tarixli 487-ci sayında "Ölülər" tamaşasından 726 manat 36 qəpik pul toplandığı haqda məlumat dərc etdirmişdir. Şairin qardaşı Rzaqulu Nəcəfov "Cəlil Məmmədquluzadə və Azərbaycan səhnəsi" adlı yazısında "Ölülər"in Naxçıvan taleyindən söz açmış və göstərmişdir ki, oyun müvəffəqiyyətlə keçməklə bərabər şəhərdə mollaların və mövhumatçı kəbleyi və hacıların içinə vəlvələ və dedi-qodu salır.

Buna görə də cəmiyyətin yaşamı uzun sürməmiş, açıq və ciddi çıxışlarına görə naxçıvanlılar və ruhanilərin təkidi ilə "El güzgüsü" cəmiyyəti bağlanmışdır. Öz məqsəd və məramlarından əl çəkməyən Əliqulu Qəmküsar və Rza Təhmasib "Xeyriyyə" məktəbində "İmdad" adlı yeni bir dram dərnəyi yaratmışdır. Burada M.F.Axundovun "Hacı Qara", C.Məmmədquluzadənin "Ölülər", M.Kazımovskinin "Molla Cəbi" pyesləri tamaşaya qoyulmuşdur. Bu dərnəyin də mövcudluğu din xadimlərini rahat buraxmamış, dərnəyə qarşı hər cür təqib və hədələrə əl atmışdılar. Belə ki, 1918-ci il mart ayının 26-da "Ölülər" pyesi oynanıldıqdan sonra axşam "İmdad" dram cəmiyyətinin yerləşdiyi otağın qapısındakı qıfıl sındırılmış, teatra məxsus bir neçə geyim və əşya aparılmış, digərləri isə dağıdılaraq yandırılmışdır. Stolun üzərinə isə hədəylə dolu məktub qoyub getmişlər.

Bu hadisələrdən sonra Əliqulu Qəmküsar yenidən Tiflisə qayıtmış və dostları Əhməd Pepinov və Əliheydər Qarayevin dəvəti ilə "Al bayraq" qəzetində çalışmağa başlamış və aktyorluq karyerasına xitam vermişdir. Cəmi bir rol oynamasına baxmayaraq şairin adı bu gün ədəbiyyat tariximizlə yanaşı teatr tariximizdə də iftixarla çəkilir. Teatr xadimlərinin, professional səhnə ustalarının, xüsusilə Mirzəağa Əliyevin Əliqulu Qəmküsarın ölümü ilə bağlı "Azərbaycan" qəzetində çap etdirdiyi yazıda şairin aktyorluq fəaliyyəti ən yüksək dəyərini tapmışdır: "Artist yoldaş! Sənin o vəhşi qatilin nəinki bir tək şer aləminə, bəlkə türk səhnəsinə, səni bizim əlimizdən almaqla, böyük bir zərbə vurdu…".

Fikrimizcə, korifey sənətkarın, eləcə də digər səhnə ustalarının şairin aktyorluq fəaliyyətinə verdiyi bu qiymət onun səhnə xidmətlərini sübut edən ən tutarlı mənbələrdir.

***Fərqanə KAZIMOVA,***
***filologiya elmləri namizədi***